*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 9 (575)

15 may 2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

**Mayın 10-da, xalqımızın xilaskar oğlu Heydər Əliyevin doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarı önünə gül qoydular, Ulu Öndərin xatirəsini ehtiramla andılar.

Sonra dövlətimizin başçısı və xanımı Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular.

Prezident və birinci xanım görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzdülər.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu böyük insan öz əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Ulu Öndər Azərbaycanı dünyaya tanıdıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, üstəlik, dünya siyasətinin nəhənglərindən birinə çevirib. "Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev bütün dövrlərdə qüdrətli



Azərbaycan uğrunda çalışıb. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaradıb, o, vətənpərvər cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşib.

Dahi Heydər Əliyev ona görə Ümummilli Liderə çevrildi ki, onun əxlaqi keyfiyyətləri ilə siyasətçi və mütəfəkkir istedadı birləşdi. "Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, amma xalqına, Vətəninə, onun yüksək əxlaqi keyfiyyətlərinə qarşı çıxmaq yolverilməzdir", - deyən Ulu Öndər Heydər Əliyev bu fikri dəfələrlə öz əməllərində sübuta yetirdi. Buna görə də Azərbaycan tarixinin bütöv bir dövrü məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövrün əsas məzmunu isə azərbaycançılıqdır.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin doğum günü münasibətilə ağac əkiblər



**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin doğum günü münasibətilə Bakının Suraxanı rayonundakı keçmiş yod-brom zavodunun ərazisində ağac əkiblər.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının tapşırığına əsasən, 2018-ci ildən başlayaraq bu ərazidə 167 hektar sahənin lay suları, neft, duz, yod və digər tullantılardan təmizlənərək bərpa edilməsinə başlanılıb.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına, yeni yaşıllıq zolaqlarının, meşə massivlərinin salınmasına, mövcud yaşıllıqların sahəsinin daha da genişləndirilməsinə xüsusi diqqət göstərilir. Ölkəmizdə bu siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, yaşıllığı az olan ərazilərin, o cümlədən də Bakının və Abşeron yarımadasının təbii landşaftının yaşıllıq zolaqları, meşə-parklarla zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verib. Hazırda ölkəmizdə həyata keçirilən dövlət siyasətində ekoloji məsələlərin həllinə xüsusi diqqət göstərilir, ekoloji mühitin dayanıqlı mühafizəsinə nail olmaq məqsədilə mühüm layihələr reallaşdırılır.

Azərbaycanda ekoloji durumun yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verib. Birinci xanımın təşəbbüsü ilə 2019-cu ildə mütəfəkkir şair İmadəddin Nəsiminin yubileyinə həsr olunan aksiyada ölkə üzrə bir gündə 650 min ağacın əkilməsi, ümumilikdə, Azərbaycanın ekoloji durumuna çox müsbət təsir göstərməklə, yaşıllıq zolaqlarının miqyasının artmasına səbəb olub. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ekoloji mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına hesablanan layihələr də əhəmiyyəti ilə seçilir.

Neft və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələsinə dövlət səviyyəsində xüsusi diqqətlə yanaşılır. İndiyədək bu istiqamətdə çox uğurlu layihələr reallaşdırılıb. Abşeron yarımadasında ekoloji mühitin sağlamlaşdırılması istiqamətində həyata keçirilən layihələrdən biri də təhlükəli tullantılarla çirkləndirilmiş keçmiş yod-brom zavodunun Suraxanı rayonu ərazisindəki tullantı poliqonu idi. Bu ərazi əvvəllər ekoloji normalara və tələblərə uyğun gəlmirdi. Görülən işlər nəticəsində hazırda ərazinin ekoloji durumu normalara tam uyğunlaşdırılıb.

Burada icra olunan layihənin birinci mərhələsində - 2018-2019-cu illər ərzində 67 hektar ərazi yod-brom və digər neft tullantılarından təmizlənib, drenaj və suvarma sistemləri qurulub, əraziyə 52 mindən çox müxtəlif növ ağac-kol tingləri əkilməklə geniş meşə-park salınıb. Hazırda həmin ərazinin qalan 100 hektarlıq sahəsində layihənin ikinci mərhələsinin icrası prosesi davam etdirilir. 2020-ci il ərzində təmizlənmiş ərazilərdə Abşeronun iqliminə uyğunlaşdırılmış Eldar şamı, Avropa zeytunu, Həmişəyaşıl sərv, Arizona sərvi və digər həmişəyaşıl ağac kol növlərinə aid, ümumilikdə, 82 min tingin əkilməsi planlaşdırılır. Layihənin icrası nəticəsində Heydər Əliyev Beynəlxalq Aeroportundan Bakı şəhəri istiqamətində, Zığ şosesi boyu hər iki istiqamət yaşıllıq zolağı olacaq.

## Prezident İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edib



**Mayın 9-da faşizm üzərində tarixi Qələbənin 75 illiyi münasibətlə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar.**

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhramanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 123 nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu qələbədə Azərbaycan nefti həlledici əhəmiyyət kəsb edib. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz olunub.

Böyük Vətən Müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman hörmətlə anılıb. Amma 1992-ci ildə Xalq Cəbhəsi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May bayramını ləğv etmişdi və veteranlar mənəvi terrora məruz qalmışdılar. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi, onları "xalqımızın qızıl fondu" adlandırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini diqqət mərkəzində saxlayır, 9 may - Qələbə bayramı ərəfəsində onlara maddi yardımlar göstərilir.

Böyük Vətən Müharibəsi bizim şanlı tariximizdir. O dəhşətli müharibədə misilsiz şücaətlər göstərən qəhrəman oğul və qızlarımız bu gün də hörmətlə xatırlanır və 75 il keçsə də, onların qazandığı tarixi Qələbə öz əhəmiyyətini itirmir.

**president.az**

2_Layout 1 13.05.2020 11:15 Page 1



# ƏLDƏ OLUNAN NAİLİYYƏTLƏR ŞƏXSİ HEYƏTİN BÖYÜK ƏZMKARLIĞINA SÖYKƏNİR

**“Panter” xüsusi təyinatlı dəstəsi Daxili Qoşunların 12565 saylı hərbi hissəsinin yüksək döyüş hazırlığı, nizam-intizamı və nümunəvi xidmətilə fərqlənən bölmələrindəndir.**



Naxçıvan Muxtar Respublikasının müxtəlif iqlim və relyefə məxsus ərazilərində adına uyğun çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları digər bölmələrin tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar, praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlirlər.



Qeyd edək ki, 2018-ci və 2019-cu illərin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə xüsusi təyinatlı dəstə ard-arda hərbi hissənin tabor və dəstələri arasında 1-ci yerə layiq görülüb. Böyük əzmkarlıqla əldə olunmuş bu nailiyyətlərə görə dəstə hərbi hissə komandirinin əmri ilə müvafiq dərəcəli “Fərman”la mükafatlandırılıb.

Dəstənin hərbi hissənin müvafiq bölmələri arasında yüksək nailiyyət əldə etməsində, təbii ki, dəstə komandiri vəzifəsini icra edən kapitan Turqay Musazadənin və ümumilikdə, kollektivin hər bir üzvünün rolu və zəhməti böyükdür.



O, 1991-ci il mart ayının 1-də Şərur rayonunun Dəmirçi kəndində anadan olub. Orta təhsilini doğma kənddəki Etibar Əhmədov adına 1 saylı orta məktəbdə alıb. 2009-2010-cu illərdə Müdafiə Nazirliyinin Naxçıvan şəhərində yerləşən “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Hərbçi peşəsinə olan xüsusi marağı onun 2011-ci ilin oktyabr ayından 12565 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmətə başlamasına zəmin yaradıb. Özünün də qeyd etdiyi kimi, hələ hərbi xidmətə yenicə qədəm basarkən onun ən böyük arzusu zabit rütbəsində Vətəninə ləyaqətlə xidmət etmək olub. Bu arzu və istəklə o, 2012-2014-cü illərdə Daxili Qoşunların zabit hazırlayan Orta İxtisas Hərbi Məktəbini (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi – A.Ə.) müvəffəqiyyətlə bitirərək “leytenant” hərbi rütbəsi alıb. İlk olaraq 12565 saylı hərbi hissədə taqım komandiri vəzifəsində xidmətini davam etdirib. Sonralar müxtəlif vəzifələrə təyin olunan hərbi qulluqçumuz, 2018-ci ilin fevral ayından may ayınadək Türkiyə Respublikasının İzmir vilayətində yerləşən Foça Jandarm Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığında müvafiq kurs keçib. Hərbi qulluqçumuz yüksək çalışqanlığı, bilik və bacarığı, eləcə də intizamlı olması sayəsində qısa müddətdə hərbi hissə komandanlığının etimadını qazanıb. Bir müddət sonra müsbət idarəçilik fəaliyyəti nəzərə alınaraq, hərbi hissənin xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi vəzifəsinə təyin olunub. Hazırda dəstə komandiri vəzifəsini icra edən hərbi qulluqçumuz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Kapitan T.Musazadə hissə komandanlığı tərəfindən xüsusi təyinatlıların hazırlığına hər zaman ciddi fikir verildiyini qeyd etdi: “Əsas vəzifəmiz qarşıya qoyulmuş tapşırıqların icrasına daim hazır olmaqdır. Dəstənin qarşısına qoyulan tapşırıqların xüsusiyyətləri şəxsi heyətin hərbi biliklərlə yanaşı, möhkəm mənəvi-psixoloji hazırlığının olmasını da tələb edir. Ona görə də yüksək döyüş hazırlığına malik xüsusi təyinatlı cəsur və iradəli olmalı, hər an dəyişə biləcək əməliyyat şəraitinə uyğun düzgün qərar qəbul etməyi bacarmalıdır. Silahlı cinayətkarların zərərsizləşdirilməsi, həmçinin, qarşıya qoyulmuş bu kimi digər tapşırıqların yerinə yetirilməsində sadalanan keyfiyyətlərin olması vacibdir”.



Dəstə komandiri, həmçinin, keçirilən məşğələlər zamanı hərbi biliklərdən əlavə, şəxsi heyətdə müsbət keyfiyyətlərin formalaşmasına da xüsusi diqqət yetirildiyini bildirdi: “Atəş və fiziki hazırlıqla yanaşı, müvafiq təlim proqramına uyğun olaraq, şəxsi heyətlə keçirilən xüsusi-taktiki, həmlə-desant, hərbi mühəndis hazırlığı, hərbi dağçılıq, hərbi topoqrafiya, tək əsgərin döyüş təlimi, ləpirçilik və yaşamaq uğrunda mübarizə kimi məşğələlərdə praktiki fəaliyyətə üstünlük verilir. Bundan əlavə, dəstənin istehkamçı yarımqrupunun hazırlığına, xüsusilə də onların təlimlərinə önəm verilir”.



Kapitan T.Musazadə məşğələlər zamanı çalışqanlıq göstərən, yüksək döyüş hazırlığı, nizam-intizamı və nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçuların adlarını qeyd etdi. Belə ki, gizirlər Sərxan Zeynalov, Kamal Mehdiyev, Malik Cəlilov, baş çavuşlar Maqsud Quliyev, Camal Əkbərli və çavuş Elgün Əsgərov dəstə komandanlığı tərəfindən müsbət xarakterizə edilirlər.



“Vətənə sədaqətlə xidmət etmək “Panter”lərin başlıca amalıdır” – deyə fikirlərini bildirən dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Məmməd Yusifov, bu istiqamətdə aparılan tərbiyə işi tədbirlərinə də geniş aydınlıq gətirdi. Bildirdi ki, dəstədə yüksək döyüş hazırlığının qorunub saxlanılması, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılması məhz xüsusi təyinatlıların möhkəm hərbi intizamına söykənir. Bu baxımdan, dəstənin qarşısına qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi xüsusi təyinatlıların ahəngdar birgə fəaliyyətindən çox asılıdır. Kapitan M.Yusifov şəxsi heyətlə aparılan tərbiyə işi tədbirlərinin əsas qayəsinin məhz dəstədə hərbi intizamın möhkəmləndirilməsi, hərbi-vətənpərvərlik əqidəsinin aşılanması və döyüş ruhunun yüksəldilməsi, kollektivdə yoldaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsindən ibarət olduğunu qeyd etdi.

İnanırıq ki, dəstənin şəxsi heyəti bundan sonra da yüksək peşəkarlıq və əzmkarlıq göstərərək, əldə etdiyi bu uğuru qoruyub saxlamağa müvəffəq olacaqdır. Onlara bu çətin və şərəfli xidmətlərində uğurlar arzulayırıq.

**mayor Anar Əhmədov**

# ÇAĞIRIŞÇILARIN HƏRBİ XİDMƏTƏ QƏBULU DAXİLİ QOŞUNLAR KOMANDANLIĞININ NƏZARƏTİ ALTINDA HƏYATA KEÇİRİLİR

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, may ayının 1-dən etibarən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilir. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının “Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında” əmrilə çağırışçıların tibbi müayinəsinin aparılması və mənəvi-psixoloji durumunun qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin Qərargahında təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.






Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Müşfiq Xankişiyev bildirdi ki, çağırışçıların xidmətə qəbulu, yerləşdirilməsi və hərbi and içənədək müvafiq qaydada hazırlanması Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi ən vacib məsələlərdəndir və onların hərbi xidmətə tədricən uyğunlaşdırılmaları, hərbi nizamnamələrin müddəaları ilə tanış olmaları, eləcə də mənəvi-psixoloji durumun yüksək səviyyədə saxlanılması təsdiq edilmiş tədbirlər planına əsasən icra edilir.

Sonra çağırışçıların qəbul məntəqəsində seçim qrupunun fəaliyyəti ilə tanış oldum. Qəbul məntəqəsinə daxil olan çağırışçılar hərbi həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri - Daxili Qoşunların Baş İdarəsində Şəxsi heyət üzrə İdarənin mənəvi-psixoloji hazırlıq şöbəsinin zabiti mayor Fariz Qurbanov və 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində xüsusi vasitələrin tətbiqi bölməsi komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Nail Nəzirov tərəfindən onlarla söhbətlər aparılır.

Baş leytenant N.Nəzirov söylədi ki, söhbət zamanı çağırışçıların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşləri, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri, yaxın qohumlarının məhkumluğunun olub-olmaması ətraflı öyrənilir. Həmçinin, onlara hərbi xidmətin üstünlükləri izah edilir, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilir. Bütün məlumatlar toplandıqdan sonra isə hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanır və hərbi hissəyə təqdim olunur.



Daha sonra çağırışçılar növbə ilə həkim-terapevt, həkim-stomatoloq, həkim ekspert-psixonevroloq, ordinator-oftalmoloq tərəfindən müayinə olunur, ümumi bədən baxışı keçirilir və sonda profilaktik flüoroqrafik müayinənin aparılması təmin olunur.



Çağırışçıların tibbi müayinədən keçirilməsi barədə məlumat verən qrupun üzvü - Daxili Qoşunların Baş İdarəsinin Tibb xidmətində Sanitar-epidemiologiya dəstəsinin rəisi-baş sanitar həkim tibb xidməti polkovnik-leytenantı Vüqar İbrahimov vurğuladı ki, nəzarət-buraxılış məntəqəsində hərbi hissəyə gətirilən bütün çağırışçıların hərarəti ölçülür və hər biri tibbi maska ilə təmin olunur. Növbə ilə həkimlər tərəfindən yoxlanıldıqdan sonra koronavirus pandemiyası ilə əlaqədar olaraq TƏBİB-in həkimləri tərəfindən bütün çağırışçılardan analizlər götürülür. Müayinələrdən keçən çağırışçılar barədə Hərbi-həkim komissiyası tərəfindən rəylər verilir və onlar yalnız praktiki sağlam hesab olunarsa, hərbi xidmətə qəbul olunurlar.

Həmçinin, çağırışçıların əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunmaları da daim diqqətdə saxlanılır.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra onlarla hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılır, hərbi xidmətə adaptasiya olunmaları üçün müvafiq məsləhətlər verilir.

Bölmələrə baş çəkərkən çağırışçıların yuyunma yerlərində və məişət otaqlarında yaradılan ciddi səliqə-sahman, hərbi qulluqçuların saçlarının və geyim formalarının qaydaya salınması üçün lazım olan hər bir şəraitin mövcudluğunun şahidi oldum.

Bütün bunlar onu deməyə əsas verir ki, Daxili Qoşunların sıralarına xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, əsl vətənpərvər hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilməkdədir.

**baş leytenant Xədicə Hacızadə**

# XİDMƏTİ HEYVANLARIN YETİŞDİRİLMƏSİ, SAXLANILMASI VƏ ONLARIN TƏYİNATI ÜZRƏ İSTİFADƏSİNƏ XÜSUSİ DİQQƏT YETİRİLİR

**Məlumdur ki, digər hüquq-mühafizə orqanları ilə yanaşı, ölkədəki daxili sabitliyin sadiq keşikçisi olan Daxili Qoşunlara həvalə olunmuş vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi - bir sıra mədəni-kütləvi tədbirlər, beynəlxalq festivallar zamanı ictimai asayişin və ictimai təhlükəsizliyin qorunması, yarışların keçirildiyi sarayların, komplekslərin etibarlı mühafizəsi zamanı xidməti heyvanlardan da istifadə olunur.**





**Bu baxımdan onların yetişdirilməsi, saxlanılması və təyinatı üzrə tətbiq olunması əsas diqqət yetirilən sahələrdən biridir.**

**Daxili Qoşunların 67987 saylı hərbi hissəsində olarkən xidməti heyvanların saxlanılma şəraiti, yetişdirilməsi, onlara göstərilən qulluq, eləcə də xidmətə hazırlanması prosesləri ilə yaxından tanış oldum.**



### KİNOLOQLARIMIZ QARŞIYA QOYULAN TAPŞIRIQLARI LAYİQİNCƏ YERİNƏ YETİRİRLƏR

İlk olaraq, Daxili Qoşunların Xidməti itləri yetişdirmə məntəqəsinə baş çəkdim. Buradakı təmizlik və sanitar-gigiyena qaydalarına ciddi riayət olunması ilk baxışdan diqqəti cəlb edir. Ərazidə əkilmiş dekorativ ağac və qızılgül kolları xoş təəssürat yaradır.

Xidməti itlərin yetişdirilməsi, təlimi, müxtəlif tapşırıqların yerinə yetirilməsi üzrə istifadə olunması, sağlamlıqlarının qorunub saxlanılması, yemlənməsi və bəslənməsi haqqında məlumat verən məntəqə rəisi mayor Pərviz Əliyev söylədi ki, silahlı cinayətkarların axtarılması, tutulması, maddi sübut hesab edilə biləcək əşyaların tapılması, silah-sursatın, həmçinin, kustar üsulla hazırlanmış partlayıcı qurğuların aşkar edilib üzə çıxarılması kimi mühüm tapşırıqlar məntəqənin üzərinə düşən əsas vəzifələrdir və bu vəzifələr müvafiq hüquqi-normativ sənədlər əsasında yerinə yetirilir. Məntəqədə olan xidməti itlər, əsasən, beş istiqamətdə - partlayıcı maddələrin, eləcə də silah-sursatın axtarışı və yerinin müəyyən edilməsi, qarovul və mühafizə xidməti, patrul xidmətinin aparılması və silahlı cinayətkarın axtarılması və tutulması üzrə (iz axtarışı) hazırlanır".

Mayor P.Əliyev, həmçinin, xidməti itləri yetişdirmə məntəqəsində hal-hazırda müxtəlif cinslərə mənsub olan 30 baş xidməti itin saxlanıldığını da qeyd etdi: "Məntəqədə olan xidməti itlərin cins tərkibi müxtəlifdir. Belə ki, onlar alman ovçarkası və Belçika malinuası cinsinə mənsubdur. Məntəqədə olan xidməti itlər müxtəlif istiqamətlər üzrə hazırlanır. Bunun üçün onlarla mütəmadi olaraq təlimlər keçirilir və zəruri hallarda xidmətdə istifadə olunur".

Məntəqə rəisi onu da vurğuladı ki, günün nizam qaydalarına uyğun olaraq gün ərzində xidməti itlərə iki dəfə qulluq göstərilir. Göstərilən qulluğa xidməti itlərin yemlənməsi, suyunun verilməsi, gəzintinin təşkil olunması, daranması və s. daxildir. Qeyd edək ki, xidməti heyvanların sağlamlığının qorunması da vacib şərtdir. Bu baxımdan məntəqədə xidməti itlərin sağlamlığı daim nəzarətdə saxlanılaraq, müxtəlif profilaktik baytarlıq tədbirləri olan vaksinasiya, dehelmintizasiya vaxtlı-vaxtında həyata keçirilir.

Qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi xidməti itlərlə keçirilən təlimlərin keyfiyyətindən də asılıdır. Bu baxımdan təlimçilərin bilik səviyyəsinin yüksək olması və praktiki təcrübəyə yiyələnmələri başlıca şərtdir.

Məntəqə rəisi keçirilən nəzəri və praktiki məşğələlərdə, eləcə də xidməti fəaliyyəti və nizam-intizamı ilə fərqlənən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları - baş çavuş Vüsal Abduyev, əsgərlərdən Cahid Abdullayev və Orxan Dosmuxanovun adlarını da qeyd etdi.





### "FƏALİYYƏTİMİZƏ VERİLƏN YÜKSƏK QİYMƏT BİZƏ MƏNƏVİ GÜC VERİR"

Xidməti atların saxlanılması, onlara lazım olan qulluğun göstərilməsində hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin süvari qrupunun şəxsi heyəti böyük rol oynayır. Qrup komandiri leytenant Nəzir Fəttayev süvari qrupunun fəaliyyəti barədə bəzi məqamlara aydınlıq gətirdi.




O söylədi ki, Daxili Qoşunlarda xidməti atlardan post-patrul xidmətinin aparılmasında, mədəni-kütləvi tədbirlər keçirilən zaman, həmçinin, çətin keçilən dağ yollarında ağır yüklərin daşınmasında istifadə olunur. Xidməti atların vaxtlı-vaxtında suvarılması, yemlənməsi və onlardan düzgün istifadə olunması qaydalarını bilmək olduqca vacibdir. Bunun üçün həftənin şənbə günləri ixtisas hazırlığı üzrə qrup və yarımqrup komandirləri tərəfindən seminar məşğələlər keçirilir: "Bu zaman qrupun hərbi qulluqçularına atların minilməsi, sürmə qaydaları, kütləvi iğtişaşlar zamanı süvari qrupun fəaliyyəti və digər mövzular tədris olunur. Bütün mövzuların qrupun şəxsi heyəti tərəfindən dərindən mənimsənilməsi, eləcə də atların sağlamlığının və iş qabiliyyətinin artırılması üçün yarımqrup komandirləri əllərindən gələni əsirgəmirlər".



O, bu işdə süvari qrupunda yarımqrup komandiri gizir Asim Səmədovun əməyini də xüsusilə qeyd etməyi unutmadı.

Gizir A.Səmədov söhbət zamanı bildirdi ki, atlara qulluq göstərilməsi və onlardan düzgün istifadə edilməsi məqsədilə hər bir at bir hərbi qulluqçuya təhkim olunur: "Atlar təhkim edilən zaman onların temperamenti, davranışı, həmçinin, hərbi qulluqçunun təcrübəsi də nəzərə alınır. Hərbi qulluqçu ona təhkim edilmiş xidməti atın xarakterik xüsusiyyətini bilməli və onlara uyğun davranış nümayiş etdirməyi bacarmalıdır. Bütün bu amillər təhlükəsizlik qaydalarının qorunub saxlanılması baxımından da xüsusi əhəmiyyət kəsb edir".

Gizir A.Səmədov hər bir atın yetişdirilməsinin və ona müvafiq təlimlərin keçirilməsinin nə qədər çətin olsa da, bir o qədər də maraqlı olduğunu qeyd etdi: "Atları çox sevirəm. Onlara keçirilən təlimlər olduqca maraqlıdır. Yeni doğulan atlara təlimlər əsas etibarı ilə 2 yaşından sonra keçirilir. İki yaşına qədər isə onun tam sağlam olaraq yetişdirilməsi vacib şərtdir. Xidməti atların sağlam yetişdirilməsi üçün onlara vaxtlı-vaxtında zoobaytarlıq qaydalarına uyğun qulluğun göstərilməsi zəruridir. Bu gün Daxili Qoşunlarda xidməti atların yetişdirilməsi üçün lazım olan bütün şərait mövcuddur. Ümumiyyətlə, bu sahənin inkişafı Daxili Qoşunların komandanlığının diqqət mərkəzindədir. Xidmətimiz çətin olsa da, fəaliyyətimizə verilən yüksək qiymət bizə mənəvi güc verir".

**baş leytenant Xədicə Hacızadə**

# HƏRBİ SALAMIN TARİXİ HAQQINDA NƏ BİLİRİK?

Hərbi salamın tarixi haqqında dəqiq məlumat olmasa da, müxtəlif mənbələrdə fərqli fikirlərə rast gəlmək mümkündür. Əvvəlcə onu da qeyd edək ki, "salam" ərəb sözü olub, mənası sülh və əmin-amanlıq deməkdir. Hər birimizin gün ərzində görüşərkən həyata keçirdiyi və "salam" sözü olmadan belə, o mənanı ifadə edən əlsıxma hərəkətinin də məhz döyüş tarixi ilə bağlı olduğu bildirilir. Belə ki, bəzi rəvayətlərə görə qədimdə kişilər özlərini və yaxın bildikləri insanları qorumaq məqsədilə hər zaman üstlərində bir silah gəzdirirdilər. Həmin silah da mütləq sağ əldə olmalı idi. Xoş məqsədlə rastlaşan kişilər əldə silah olmadığını bildirmək üçün boş sağ əllərini bir-birinə təqdim edib sıxırdılar. Sonradan bu vərdiş görüşmək nümunəsinə çevrildi.



Bunun digər nümunəsində isə qeyd edilir ki, adamlar silahlı olmadıqlarını göstərməkdən ötrü bir-birinə ovuclarının içini göstərirdilər. Amma qədim Romada bu adət azacıq dəyişdi. Belə ki, Romada insanlar boş ovuc göstərənin silahsız olmasına inanmırdılar. Elə zənn edirdilər ki, ovuc göstərən adam libasının altından həmən silah çıxarıb onu vura bilər. Odur ki, tam arxayın olmaq üçün əllərini bir-birinə yaxınlaşdıraraq sıxmağa başladılar.

Orduda qəbul olunan hərbi salamlaşmanın - sağ əli furajkanın günlüyünə qoymaq ənənəsinin tarixinin qədim dövrlərə aid olduğu hesab edilir. Hansı ki, o dövrlərdə cəngavərlər yaraq-əsləhəni tam komplektdə daşıyırdılar. İki cəngavər üz-üzə gəldikdə qarşılarındakı şəxsin dost



və ya düşmən olduğunu anlamaq üçün onlar dəbilqəni, yaxud da dəbilqənin qalxanını qaldırmalı olurdular. Bu hərəkət artıq yaraq-əsləh gəzdirmə dövrü sona çatdıqda belə, döyüşə hazırlaşan iki şəxsin qarşılaşması zamanı təkrar olurdu. Beləliklə, hərbi salamlaşmanın əsası qoyulmuş oldu.

Bəzi mənbələrdə isə hərbi salamlaşmanın Çingiz xanın ordusunda yaranan bir ənənədən meydana gəldiyi qeyd olunub. Orta əsrlərdə dünyanın ən böyük ordusunda sıravi döyüşçüdən tutmuş, yüksək çin-



li sərkərdəyə qədər hər kəs rastlaşan zaman özünün Çingiz xan ordusunun üzvü olduğunu bildirmək üçün əlini çiyin bərabərindən başına aparırdı. Üz-üzə gəldiyi adam eyni hərəkəti edirdisə, onun da döyüşçü olduğu bilinirdi.

Müasir hərbi salamlaşma ənənəsinin isə öz başlanğıcını Böyük Britaniyadan götürdüyü bildirilir.

Əvvəllər demək olar ki, dünyanın hər yerində, əsasən də Böyük Britaniya ordusunda aşağı rütbəlilər yüksək rütbəliləri salamlayarkən şlyapalarını çıxarmalıydı. XVIII-XIX əsrlərdə bu ölkənin ordusunda hərbi baş örtüyü çox iri olduğundan, onu hər dəqiqə çıxarıb-taxmaq çətinlik yaradırdı. Bu səbəbdən də hərbidə salamlaşma sağ əldəki barmaqların ucunu alına toxundurmaqla sadələşdirildi.

Məlum olduğu kimi, hərbi salamlaşma ilk dəfə 1745-ci ildə Koldstrim alayında, İngiltərə kraliçasının elitar qvardiyasının şəxsi mühafizə bölməsində rəsmiləşdirildi. Alay qvardiyasının nizamnaməsində belə yazılıb: "Şəxsi heyətə əmr verilmişdir ki, artıq zabitlərə salam verərkən və ya müraciət edərkən şlyapa çıxarılmamalı, əvəzində sadəcə olaraq sağ əldəki barmaqların ucu papağa toxundurularaq təzim edilməlidir".

1762-ci ildən isə hərbi salamlaşma ilə bağlı şotland qvardiyasının nizamnaməsi daha da qətiləşdirilir. Nizamnamədə deyilir: "Hər addımbaşı şlyapanı çıxarmaq narahat olduğundan, şlyapanın tutacağı çox tez kirlənib çirkləndiyinə görə əmr olunur ki, hərbi salam verərkən ovucu papağa toxundurmaq kifayətdir". Bu əmrə əks təsirlər göstərilsə də, yenə də öz qüvvəsində qalmışdır.

XIX əsrin ortalarında isə Böyük Britaniyada hərbi salamlaşmada bəzi dəyişikliklər edildi. Belə ki, hərbi salamlaşma zamanı sağ əldə ovucun içi çölə olmaqla barmaqların ucu sağ qaşın üstünə və baş örtüyünə toxunmalıdır. Bu ənənə indiyədək qalmaqdadır. ABŞ-da hərbçilər salamlaşarkən əllərini alının ortasına qədər uzadırlar və



ovuclarını aşağıya, yəni yerə yönəldirlər. Bu cür salamlaşma amerikalılara İngiltərənin Hərbi Dəniz Donanmasından keçmişdir. Belə ki, hələ yelkənli gəmilər olan zamanlar dənizçilər gəmilərin taxta hissələrini qırlayırdılar ki, həm suya davamlı olsun, həm də çatlardan içəri su keçməsin. Bu zaman dənizçilər əlləri qıra bulaşmasın deyə, ağ əlcəklər geyirdilər və iş zamanı hərbi salam verərkən qara, çirkli ovuclarının görsənməsi layiqli olmadığından 90 dərəcə aşağı çevirirdilər. Beləliklə də ağ əlcək geyib hərbi salam vermək adəti buradan yaranmış və indiyədək bir ənənə halını almışdır.

Çar Rusiyasında isə hərbçilər salamlaşarkən iki barmağı (göstərici və orta barmaq) alına, qaşın üstünə qoyurdular. Bu ənənə hal-hazırda Polşada mövcuddur.

**Ölkəmizdə hərbi salam Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sıra Nizamnaməsinə uyğun yerinə yetirilir. Bütün qoşun növləri, həmçinin, polis və xüsusi xidmət orqanlarının əməkdaşları hərbi salamı bu nizamnamənin üçüncü fəslində qeyd olunan əsgəri salamlaşma qaydalarına müvafiq icra edirlər. Nizamnamədə əsgəri salamın silahsız və ya silahla olarkən, dəqiq və qıvraq, sıra duruşu və yerişi qaydalarını düzgün yerinə yetirməklə verilməli olduğu göstərilib.**

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin birinci fəslində də əsgəri salamlaşmalarla bağlı müddəalar öz əksini tapıb. Belə ki, bütün hərbi qulluqçuların qarşılaşdıqları zaman (bir-birini ötüb keçdikdə) Sıra Nizamnaməsində müəyyən edilmiş qaydada bir-birilə salamlaşmalı, eləcə də tabelikdə olanların və rütbəcə kiçiklərin salamı birinci verməli olduqları qeyd olunub.

Bundan əlavə, nizamnamədə hərbi qulluqçuların Şəhidlər xiyabanlarına, naməlum əsgərin məzarına, Vətənin azadlığı və müstəqilliyi uğrunda döyüşlərdə həlak olmuş əsgərlərin qardaşlıq qəbiristanlığına, hərbi hissələrin Döyüş Bayraqlarına, həmçinin, hərbi gəmiyə gəldiyi və getdiyi zaman Hərbi Dəniz Bayrağına, qoşunların müşayiət etdikləri dəfn mərasimlərinə əsgəri salam vermələri tələb olunur.

**Mətbuat xidməti**

# ANA DİLİMİZDƏ QÜRURLA SƏSLƏNƏN VƏ RƏĞBƏT DOĞURAN SÖZ - ƏSGƏR!

**Əsgər sözü Vətənin müdafiəçisi, əlisilahlı döyüşçü mənasını ifadə etməklə, cəsurluq və fədakarlıq keyfiyyətlərinin daşıyıcısı kimi ictimai təfəkkürdə qəbul olunur. Ana dilimizdə əsgər sözünün mənəvi mahiyyəti dolğun şəkildə öz əksini tapıb. Onun mənəvi mahiyyətinin əsas məğzi vətənpərvərlik, döyüşkənlik, əzmkarlıq və ləyaqətlilik məfhumları ilə sıx bağlıdır.**



El-obalarımızın deyimləri, məsəlləri, kəlamları, bayatıları, müxtəlif söz çələnglərində əsgərə xitabən yurd əmanəti, ocaq əmanəti kimi ifadələrə rast gəlinir və onun haqqında rəğbətlə danışılır, eləcə də ona alqışlar, dualar ünvanlanır. Həqiqətən də ulu əcdadlarımızın mirası, varlığımızın mənbəyi olan Vətən torpağının yağılardan qorunması əsgərə etibar edilir. Hər bir xalqın mübarizliyi və yenilməzliyi onun əsgərinin döyüş ruhu ilə müəyyən olunur.

Dəyanətli əsgər yetişdirmək bir həyat məktəbidir. Burada ata ocağının tərbiyəsi, müəllimlərin öyrətdikləri biliklər və öyüd-nəsihətləri, cəmiyyətdə milli-mənəvi dəyərlərin aşılanması, o cümlədən, komandirlərin təlimi vacib rol oynayır. Bütün bu amillər bir-birini tamamlayır və mənəvi bütövlük formalaşdırır.

Vətənə layiq əsgər olmaq tək bir fərdin deyil, onun ailəsinin, el-obasının, oxuduğu məktəbin, onu əsl döyüşçü kimi hazırlamış komandirlərin qürur mənbəyidir.

Əsgər andı həyatda bütün andlardan müqəddəsdir! Bu andına son nəfəsinədək sadiq qalan əsgər ölməzliyə ucalar, ona dönük çıxan əsgər isə şərəfini itirməz. Vətənimə və xalqına əsgər borcunu vicdanla yerinə yetirən oğul həyatda sevdiklərinin, ona güvənənlərin, yoldaşlığına arxalananların inamını, etibarını itirməz, öz mənliyinə ləkə salmaz. Döyüş meydanında ilk həddəfdə olan, düşmənin üzərinə atılan, komandirini qorumaq üçün sinəsini canlı sipər edən, yaralı yoldaşını nəyin bahasına olursa-olsun, od-alovun içərisindən çıxaran, işğalına son qoyduğu doğma torpağın hər qarışına qanı tökülən əsgərdir!

Dağları, meşələri, düzənlikləri, yaşayış məntəqələrini əhatə edən, düşmənlə üzbəüz səngərlərdə, habelə məmləkətimizin sərhədlərində gecəli-gündüzlü, istənilən hava şəraitində keşik çəkən, heç bir təhlükə və çətinlik qarşısında büdrəməyən, qəlbində sonsuz milli bayraq sevgisi olan əsgərdir!

Həyatın müxtəlif sınaqlarında, fövqəladə hallarda, ekstremal vəziyyətlərdə vətəndaşın yanında olan, onu təhlükədən qurtaran, kömək əlini uzadan, əmin-amanlığını qoruyan əsgərdir!

İnsanın həyatında dostluq və yoldaşlıq münasibətləri həmişə vacib rol oynayır. Ancaq döyüş sınağından keçənlər və ümumilikdə, hərbi xidmətdə olanlar təsdiq edərlər ki, əsgəri qardaşlıq dostluqların zirvəsidir. Əsgəri qardaşlıq təhlükəli məqamlarda bir-birinə dayaq olmaqdır, çətinlikləri birgə adlamaqdır, yoldaşının gücünə güc qatmaqdır, güvənini doğrultmaqdır, qayğısını əsirgəməməkdir, uğur və uğursuzluqda sevinci, kədəri bölüşməkdir, birlik əzmindən ruhlanmaqdır.

Əsgər silahdaşdır, o, əqidəsindən dönməzdir, əmrə itaət edəndir, hərbi ənənələrə ehtiram göstərəndir, döyüşmək məharətinə iradəsini toparlayaraq, tər tökərək yiyələnəndir, hərb və sülh missiyası onun əsas məramıdır.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında xidmət edən əsgərlər də qəhrəmanlıq örnəkləri əsasında tərbiyə olunur, hərbi xidmət vəzifələrini şərəflə yerinə yetirirlər. Onların arasında ali təhsilli mütəxəssislər, müxtəlif peşə sahibləri, yüksək dərəcəli idmançılar, yaradıcı istedadı olanlar, hərbçi ailəsində yetişənlər az deyil. Bu əsgərlərin hər birinin öz gələcəyi var və Daxili Qoşunların tərkibində hərbi xidmət onların həyatının ən qürurlu səhifəsi, mühüm fərdi keyfiyyətlərə yiyələndikləri bir mərhələdir.

Azərbaycan əsgəri tarixi bir sınaq qarşısındadır. O, şəhidlərimizin, soyqırıma, terrora məruz qalmış, doğma yurdlarından didərgin salınmış soydaşlarımızın qisasını alacaq və itirdiyimiz torpaqlarımızı düşmən tapdağından azad edəcəkdir!

**Yalçın Abbasov**

*Nümunəvi xidmət*

# FUNKSİONAL VƏZİFƏLƏRƏ MƏSULİYYƏTLİ MÜNASİBƏT TƏQDİRƏLAYİQDİR



**Qəzetimizin hər sayında Daxili Qoşunların hərbi hissələrinin nümunəvi bölmələri və hərbi qulluqçularının xidməti fəaliyyətləri haqqında materiallar dərc olunur. Bu sayımızda da ənənəmizə sadiq qalaraq, 99713 saylı hərbi hissənin nizam-intizamı, xidmətə münasibətlə fərqlənən bölmələrindən biri olan qərargahda şəxsi heyətin uçotu üzrə bölmə haqqında məlumat vermək istəyirəm.**

Bölmənin hər bir hərbi qulluqçusu öz işinə məsuliyyətlə yanaşır. Gün ərzində aparılan işlərin hansı istiqamətdə qurulduğunu, iş prinsiplərinin nəyə əsaslandığını bilmək üçün qərargah rəisinin şəxsi heyətin uçotu üzrə baş köməkçisi mayor Rəşad Məcidovla söhbət etdik. Söhbət əsnasında, hərbi hissənin təyinatına görə bölmənin mühüm və spesifik sahə olduğunu nəzərimizə çatdıran bölmə rəisi burada daha çox diqqəti olmağın vacibliyini vurğuladı. Bildirdi ki, xidməti fəaliyyətin təşkil olunub aparılmasında Azərbaycan Respublikasının hərbi qanunvericiliyi və Daxili Qoşunların komandanının müvafiq əmri ilə təsdiqlənmiş şəxsi heyətin uçotunun aparılmasına dair təlimatın tələbləri əsas götürülür. Fəaliyyət şəxsi heyətin uçotu və kadr işinin təşkili olmaqla 2 istiqamətdə aparılır. Bölmədə hərbi hissənin zabit, gizir, müddətli və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının məzuniyyətlərinin, ezamiyyətlərinin qeydiyyatı aparılır. Ən önəmli məsələ isə bu qeydiyyatların düzgün və dəqiq işlənməsidir.

Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan mayor R.Məcidov şəxsi heyətin qeydiyyatına, uçotuna, hərbi qulluqçuların uçotu üzrə müvafiq sənədlərin, eləcə də qeyri-məxfi kargüzarlığın aparılmasına cavabdehlik daşıdığını və tabeliyində olan hərbi qulluqçuların fəaliyyətinə daim nəzarət etdiyini xüsusi olaraq vurğuladı. Hərbi hissənin tarixi formulyarını işləyib hazırlayan, vaxtlı-vaxtında və dəqiqliklə bu sənəddə müvafiq qeydlər aparan bölmə rəisi xidmət üzrə yerdəyişmələr, hərbi rütbələrin verilməsi və onlardan məhrumedilmə, təltiflərə təqdimolunma və hərbi qulluqçuların tərxis olunması sənədlərinin işlənməsini uğurla təşkil edir.

Daxili İşlər nazirinin və Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının şəxsi heyət üzrə əmrlərinə əsasən, zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının şəxsi işlərində, xidməti vərəqələrində, hərbi biletlərində müvafiq qeydiyyatlar aparılır. Mayor R.Məcidov xidmətin uğurlu təşkilində məsul icraçıların da əməyini müsbət qiymətləndirdi: "İstənilən sahədə uğurlu iş prinsipi, nailiyyətin əldə olunması kompleks fəaliyyətə bağlıdır. Bu mənada bizim bölmənin hərbi qulluqçularının intizamı, xidmətə münasibəti təqdirəlayiqdir. Hərbi qulluqçularımız - gizirlər Pərvanə Quluzadə və Xatirə Fərzəlizadə, kiçik gizirlər Orxan Səfərli və Şəhla Həsənova tərəfindən verilən hər bir tapşırığın öhdəsindən layiqincə gəlirlər".

**baş leytenant Nigar Ağayeva**

*Nümunəvi xidmət*

# "Daxili Qoşunların sıralarında xidmət mənim üçün qürurvericidir"

Daxili Qoşunların 16077 saylı hərbi hissəsinin hərbi qulluqçuları nizam-intizamı, məsuliyyəti, xidməti vəzifələrini keyfiyyətlə yerinə yetirməri ilə fərqlənirlər. Belə nümunəvi hərbi qulluqçulardan biri də çavuş Rəşid Niyazlıdır. O, 2001-ci il aprelin 1-də Biləsuvar rayonunun Dövrüşlü kəndində anadan olub. 2007-2018-ci illərdə Biləsuvar rayonunda yerləşən Nemət Sultanov adına tam orta məktəbdə təhsil alıb. Hərbi xidmətə başlamazdan öncə bir müddət mülki işlərdə çalışıb. 2019-cu ilin aprel ayında Vətən qarşısında borcunu yerinə yetirmək üçün Daxili Qoşunların 25031 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlayıb. Hazırda 16077 saylı hərbi hissənin komendant bölüyündə manqa komandiri vəzifəsində xidmət edir. Vətənə xidməti hər şeydən üstün tutan Rəşid nizam-intizamı, ayıq-sayıqlığı, bilik və bacarığı, dözümlülüyü ilə seçilir. O, kiçik komandir kimi bölüyün şəxsi heyətinə və ümumilikdə, çavuş hərbi qulluqçulara nümunədir desək, yanılmarıq.

Çavuş R.Niyazlı hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Qarovul xidmətində, keçirilən fiziki hazırlıq, atəş hazırlığı məşğələlərində fərqləndiyinə görə dəfələrlə mükafatlandırılıb. O, manqa komandiri kimi tabeliyindəki şəxsi heyətə qayğı göstərir, onların ehtiyaclarını dərindən öyrənir, günün nizam qaydalarına riayət olunmasına nəzarət edir, eyni zamanda, bölüyün döyüş hazırlığının təkmilləşdirilməsinə öz töhfəsini verir.

Komendant bölüyünün komandiri baş leytenant Fuad İsmayılov da çavuş R.Niyazlını müsbət xarakterizə edərək bildirdi ki, o, vəzifə borclarını layiqincə yerinə yetirir. Təhkim olunmuş silahların, əmlakların yoxlanılmasını, onların saz vəziyyətdə saxlanılmasını, eləcə də xidmətə cəlb olunarkən qarovul rəisinin köməkçisi kimi daxili qayda-qanuna riayət edilməsini, saatdarların dəyişdirilməsini təmin etmək onun funksional vəzifələrindəndir.

Hərbi qulluqçumuzun idmana və kitab oxumağa da böyük marağı var. O, idmanın MMA növü ilə məşğul olur və bölüyün idman təşkilatçısıdır.




Çavuş R.Niyazlı müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra da Daxili Qoşunların sıralarında xidmətini davam etdirmək istəyir. Ona bu şərəfli xidmətində uğurlar arzulayırıq.

**16077 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

*Həkim məsləhəti*

# YAZ BİTKİLƏRİ VƏ ONLARIN MÜALİCƏVİ KEYFİYYƏTLƏRİ

**Qış fəslində qidalanma insan orqanizminin vitamin və antioksidant depozunu azaldır, çünki qəbul edilən qidaların tərkibində vitaminlər az olur, necə deyərlər, bədən vitaminsizləşir.**



Həkim-fitoterapevt Fizuli Hüseynov ayrı-ayrı bitkilərin müalicəvi xüsusiyyətləri haqqında **AZƏRTAC**-a deyib: "Əməköməncinin tərkibindəki maldivin maddəsi çox güclü mikroböldürücüdür. Ağız boşluğu, ağciyər xəstəlikləri, mədə-bağırsaq səpgilərində çox faydalıdır.

Gicitkənin təzə yarpaqları ilə revmatizm xəstəliyində ayaqları döymək çox faydalıdır. Gicitkənin təzə yarpaqlarını 5-6 saat suda saxlayandan sonra şirəsini çəkib səhər acqarına içmək bədən üçün çox şəfalıdır.

Yaşıl sarımsaq tərkibinə görə baş sarımsaqdan çox-çox zəngindir. Çox güclü bir bakterisit və şişlər əleyhinə təsiri var, şirəsini çəkib limon şirəsi ilə qarışdırıb acqarına içilməsi xərçəng xəstələri üçün çox faydalıdır. Çox güclü bir qurdqovucudur.

Qulançarın tərkibindəki vitaminlər mədə-bağırsaq yaralarında, qastrit və kolitlərdə çox yaxşı təsir göstərir. Fol turşusu ilə zəngin olduğuna görə hamilə qadınlar, A vitamini ilə zəngin olduğuna görə gözlər üçün çox faydalıdır. Böyrək soyuqdəymələrində azca qovrulub yeyilməsi məsləhət görülür".

Yazda çıxan digər bitkilər barədə məlumat verən həkim-fitoterapevt deyib ki, cincilimdən dəmlənilmiş çaydan yarım stəkan içilməsi mədə qıcqırmasını aradan qaldırır, mədə-bağırsaq sistemi üçün olduqca faydalıdır, qaraciyər çatışmazlığı nəticəsində artan bütün fermentləri zaman-zaman azaldır: "Tərkibində yod olduğundan qalxanabənzər vəz çatışmazlığında həmin çayın içilməsi faydalıdır. Ondan dəmlənilmiş çayın axşam içilməsi əsəbləri sakitləşdirir, yaxşı yuxunu təmin edir. Yarpızın çaya qarışdırılıb içilməsi çox yaxşı köpqovucu təsir göstərir. Bədənə rahatlıq gətirir, əsəbləri sakitləşdirir. Reyhan bitkisi də çox faydalı xüsusiyyətlərə malikdir. Tərkibindəki zəngin vitaminlər iştahanı açır. Bədəndəki ödəmləri götürür, böyrəkləri təmizləyir".

## HƏRBİ XƏBƏRLƏR · YENİLİKLƏR ·

### ABŞ ordusu "Arcturus JUMP 20" dronlarını sınaqdan keçirib

ABŞ ordusu yeni "Arcturus JUMP 20" dronlarını sınaqdan keçirib. Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, dronlar hazırkı



"Textron" istehsalı RQ-7 "Shadow" dronlarını əvəz etmək üçün nəzərdə tutulub. Bildirilir ki, 5 metrə yaxın qanadları olan dronun çəkisi 95 kiloqramdır.

### Portuqaliya yeni yüngül taktiki zirehli texnikalar almağı planlaşdırır

Portuqaliya ordusu 2020-ci ildən başlayaraq ABŞ-dan 4x4 yüngül taktiki zirehli texnika (JLTV) əldə etməyi planlaşdırır.



Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Portuqaliya Baş Qərargahının rəsmisi Rikardo Kamilo məlumat verib.

Bildirilir ki, ilkin partiyaya 250 ədəd zirehli texnika daxildir.

### Belarus yeni zirehli təmir-təxliyyə maşınının istehsalına başlayıb

Belarusun "140-cı təmir zavodu" ASC yeni zirehli təmir-təxliyyə maşınının istehsalına başlayıb. Bu barədə "AzeriDefence" Belarus Dövlət Hərbi-Sənaye Komitəsinə istinadən məlumat verib.



Zirehli təmir-təxliyyə maşını əsasən 50 ton ağırlığında olan nəqliyyat vasitələrini təxliyyə etmək, 12 ton ağırlığında olan avadanlıqları qaldırmaq imkanına malikdir. Zirehli maşın çöl şəraitində texnikalara təmir və texniki xidmətlərin göstərilməsi üçün T-72 tankının şassisi əsasında hazırlanıb.

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan polkovnik Ayazəli Ziyadovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan baş gizir Əbülfət Quliyevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000